**Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun keyfiyyət sahəsində fəaliyyəti:**

- Qida təhlükəsizliyi sahəsində standartların tələblərinə cavab verən keyfiyyətli xidmətlərin təmin edilməsi;
- İnstitutda qüvvədə olan idarəetmə sisteminin *və* ***beynəlxalq standartlarının tələblərinə uyğun olaraq inteqrasiya edilmiş idarəetmə sistemi səklində*** daim təkmilləşdirilməsi;
- Keyfiyyət sahəsində siyasətin daimi yararlılığının təhlili;
- İnstitutun bütün işçilərinin bilik səviyyələrinin və peşə ixtisaslarının fasiləsiz artırılması;
- İnstitutun hər bir əməkdaşının öz iş metodunun keyfiyyətinə və təkmilləşdirilməsinə məsuliyyətli yanaşması;
- Keyfiyyət sahəsində siyasətin İnstitutun məqsədləri ilə vəhdət təşkil etməsi;
- İnstitutun keyfiyyət sahəsində siyasəti barədə bütün əməkdaşların məlumatlandırılması;

**Keyfiyyət sahəsində qida təhlükəsizliyi istiqaməti üzrə xidməti öhdəliklər:**

- Xidmətlərin yaxşılaşdırılması, onların keyfiyyətinin artırılması, təkmilləşdirilməsi;
- Xidmətlərin tətbiq edilməsi və keyfiyyətinə nəzarət üsullarının inkişaf etdirilməsi;
- Qanunvericilikdə baş verən dəyişikliklərlə əlaqədar tələb olunan tədbirləri vaxtında həyata keçirmək və sənədləşdirmədə müvafiq düzəlişlər aparmaq;
- Xidmətlərin hazırlanmasında həm də biznes proseslərinin effektivliyinin və keyfiyyətinin artırılmasına kömək edən texniki yeniliklərdən və aparıcı texnologiyalardan istifadə edilməsi;
- Qida təhlükəsizliyi sahəsində mövcud və potensial ehtiyacların daim öyrənilməsi və təkmilləşdirilməsi.

**Keyfiyyət sahəsində sifarişçilərimiz, partnyorlarımız və cəmiyyət qarşısında öhdəliklər:**

- Qida təhlükəsizliyi sahəsində əhalinin, sifarişçilərin və partnyorlarımızın maarifləndirilməsi, ehtiyaclarının müəyyənləşdirilməsi və həmin ehtiyaclara uyğun təkliflərin təqdim edilməsi;
- Xidmətlərimizlə əlaqədar əhalinin, sifarişçilərin və partnyorlarımızın suallarına operativ cavab verilməsi, onların xidmətlərimizdən istifadə edə bilmələrinin təşkil edilməsi və yaranan problemlərin vaxtında həll edilməsi;
- ***Qanunvericilik və akkreditasiya tələblərinə uyğun olaraq, qərəzsizlik, etibarlılıq və məxfilik prinsiplərini qorumaqla milli və beynəlxalq standartlara, həmçinin sifarişçi tələblərinə uyğun fəaliyyət həyata keçirmək;***

**Təsdiq etdi: Əli Nəbiyev** **Tarix: 17.11.2025**

**İdarə heyətinin sədri** **İmza:**